**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 11/5

Bakı şəhəri 29 iyun 2018-ci il

Bakı Dövlət Universitetinin
100 illik yubileyi haqqında

XX əsrdə Azərbaycan xalqının ictimai-siyasi, mədəni-mənəvi və intellektual inkişafında müstəsna rola malik, şərəfli inkişaf yolu keçmiş Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 14 noyabr 2017-ci il tarixli 3384 nömrəli Sərəncam imzalamışdır. Həmin Sərəncamın icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 21 may 2018-ci il tarixli 344 №-li Sərəncamla "Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı Tədbirlər planı"nı təsdiq etmişdir. Təsdiq olunmuş Tədbirlər planında Bakı Dövlət Universitetinin 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasına bir sıra tapşırıqlar verilmişdir.

Bakı Dövlət Universitetinin 100 illik yubileyi ilə bağlı nəzərdə tutulan işlərin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə tapşırılsın ki, Bakı Dövlət Universitetinin 100 illik yubileyi ilə bağlı nəzərdə tutulan tədbirlərin icrasından irəli gələn məsələləri həll etsin.
2. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ MƏRKƏZİ APARAT PROTOKOL ŞÖBƏSİ